# Ağsuda mətbuatın 140 illiyinə həsr olunan yığıncaq keçirilib

Ağsuda Azərbaycan milli mətbuatının 140 illiyinə həsr edilən təntənəli yığıncaq keçirilib. Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə rayon rəhbərliyi, jurnalistlər, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər. Yığıncaqda Rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Mirzəliyevanın görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi tərəfindən 1875-ci il, iyulun 22-də nəşrə başlayan və cəmi 56 nömrəsi çıxan "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatının keçdiyi çətin və şərəfli tarixi yol barədə məruzəsi dinlənilib, çıxışlar olub. Qeyd edilib ki, maarifçilik xüsusiyyətləri ilə seçilən "Əkinçi" qəzeti ölkəmizdə ictimai şüurun formalaşmasında, məfkurə saflığının, ümummilli dəyərlərin və məqsədlərin təbliğində, ədəbi dilin zənginləşməsində məktəb səviyyəsinə yüksəlib. Vurğulanıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərib. Bu ənənənin əsası ümummilli lider Heydər Əliyevin milli mətbuatımızın 125 illiyinin keçirilməsi haqqında 2000-ci ilin martında verdiyi fərmanla qoyulub. Məhz ulu öndərin, onun siyasi varisi Prezident İlham Əliyevin ardıcıl və prinsipial səyləri nəticəsində mətbuat azadlığı təmin olunub, jurnalistlər dövlət qayğısı ilə əhatə edilib.